

*Ramiz* ***MÖVSÜM***

# PAYIZ GƏLDİ...

***Nar bağında düşüncələr***

Qızıl payız gəlib yurduma yenə,
Yaşıl budaqlarda narlar alışır...
İki rəng vəhdətdə!.. Bir-birlərinə
Yaşılla qırmızı necə yaraşır!..

Qırmızı çıraqlar yaşıl əllərdə
Bir baxın, necə də gözəl görünür...
Nar əlac eləyir nə qədər dərdə,
Çətində dəyəri mərəzə dönür!..

Xonçalarda gedir nişanda, toyda;
Hörmətlə, izzətlə adı çəkilir.
Bayramı keçrilir hər il Göyçayda,
Görüşünə ellər axışıb gəlir...

Qırmızı çıraqlar yanır hər yanda,
Qırmızı duyğular axır qəlbimə...
Mən donub qalmışam nar işığında,
Hissə qapılmışam burda, sən demə...

Qırçınlı piltəsi nur alır gündən, -
Nar çəkir canına atəşi, odu.
Payıza çatanda közərir dən-dən,
Bapbalaca küpü «qorla» doludu!..

Mənə nələrisə andırmaq üçün,
Bağın bircə dənə narı bəs eylər...
Mənim ürəyimi yandırmaq üçün,
Narın dənəsinin qoru bəs eylər!..

***2021***



Kredo.-2021.- 29 oktyabr.- S.15.